# Qəbələdə karantin rejiminin vəziyyəti ilə bağlı reydlər davam etdirilir

Bu günlərdə rayon ərazisində koronavirus (COVİD-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə xüsusi karantin rejiminin tələblərinə əməl olunmasının yoxlanılması üçün reydlər davam etdirilmişdir. Mobil qruplar ölkə ərazisində tətbiq olunmuş xüsusi karantin rejimi ilə əlaqədar rayonun ictimai iaşə, ticarət və digər obyektlərində müəyyən edilmiş qaydalara əməl olunması vəziyyətini öyrənmiş və lazımi tədbirlər görmək üçün reydlər aparmışlar. Reydlər zamanı vətəndaşlara tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi bir daha diqqətə çatdırılmışdır. Bu istiqamətdə müntəzəm olaraq maarifləndirmə tədbirləri davam etdirilir.



## Son günlərdə

***Çinin Vuhan şəhərində dekabr ayının sonunda ortaya çıxan koronavirus pandemiyası bir çox ölkələrdə təsirini göstərməyə davam edir. Xatırladaq ki, dünyada indiyə qədər 19 milyondan çox insana COVİD-19 diaqnozu qoyulub. Onlardan 711 min 876 nəfəri ölüb, 12 milyon 193 min nəfəri isə sağalıb.***

***Bəzi ölkələrdə tətbiq edilən karantin rejimi yumşaldılarkən, ABŞ, Braziliya və Hindistan kimi ölkələrdə xəstə saylarında artım davam edir.***

***O cümlədən, sevindici haldır ki, ölkə rəhbərliyinin göstəriş və təlimatlarına əsasən ölkəmizdə pandemiyaya qarşı görülən ciddi tədbirlər nəticəsində 6 avqust 2020-ci il tarixinə qədər ümumi yoluxma sayı 33103, ümumi sağalanların sayı 28840, aktiv xəstə sayı 4456, ümumi test sayı 759129, ümumi ölüm sayı isə 476 nəfərdir ki, bu da dünya koronavirus göstəricilərindən aşağıdır.***

# Tarixi yazanlar əbədi yaşar

(Əvvəli 3-cü səhifədə).

atəşi ilə yaralanmış, 23 saat sağ qalmış, onu Moskvaya müalicəyə aparmaq üçün təyyarə göndərilsədə, həmin vaxt cəbhənin komandanı olmuş erməni Baqramyanın əmri



ilə təyyarə işə salınmamış və Həzi Aslanov vəfat etmişdir. Təəssüf ki, ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən 47 il sonra , 1991-ci ildə çatır...

Hələ müstəqilliyimizin ilk vaxtlarında belə, torpaqlarının hər qarışı üçün canını fəda edən generalları-mız var bizim... Taleyi bir-birinə bənzər xalqın istəkli generalları... Məhəmməd Əsədov və Müstəqil Azərbaycanın ilk Baş Prokuroru İsmət Qayıbov.

Məhəmməd Əsədov 1990-cı ilin may ayında Azərbaycanın Daxili İşlər Naziri vəzifəsinə təyin edilmişdir. Ona qədər müxtəlif rayonlarda partiya katibi vəzifəsində çalışmış, lakin DİN təyinatı onu bütün Azərbaycanda,eləcə də sərhədlərdən kənarda da tanıtmışdır. Deyilənlərə görə, ermənilər hətta onun adından belə qorxurdular. Məxfi danışıqlarda onun adı Qara Polkovnik idi. Zəhmli idi, eyni zamanda ürəyi yumşaq idi Məhəmməd Əsədov. Hər zaman ən qaynar nöqtələrdə olmuş, bir çox kəndlərin erməni quldurlarından təmizlənməsi işində şəxsən iştirak etmişdir. 1990-cı ilin noyabr ayının 5-də general-mayor rütbəsi alan Məhəmməd Əsədov 1991-ci ilin noyabrın 13-də Müdafiə və Təhlükəsizlik üzrə Dövlət müşaviri postuna təyinat alır. Təəssüf ki, o, bu vəzifəni 7 gün daşıyır. 1991-ci ilin noyabrın 20-də "Mİ-8" helikopterinin vurulması nəticəsində qəhrəmancasına həlak olur.

O zaman həmin helikopterdə o, tək deyildi. Onunla birlikdə Müstəqil Azərbaycanın İlk Baş Prokuroru, eyni zamanda III dərəcəli Dövlət Ədliyyə müşaviri İsmət Qayıbov da var idi. Onun adı da ermənilərin qara siyahısında idi. Baş Prokuror Xankəndi və Dağlıq Qarabağın digər yerlərində ermənilər tərəfindən aparılmış etnik təmizləməni araşdıran istintaqa rəhbərlik etmiş və bu vəhşiliyin ermənilər tərəfindən törədildiyini sübut etmişdir. Onlar Azərbaycanın itirilən hər qarışı üçün canını, qanını verməyə hazır generallar idi və elə də oldu... Bəlkə də elə bu cür generallarımızın faciəli ölümünün səbəbi də bu idi, kim bilir?! Qəhrəmanların ölümü gün batışını xatırladır, deyirlər. Vaxt gələcək günəş kimi parıldayan o faktların qarşısından qara buludlar çəkiləcək və o günəşi hər kəs görəcək.

Dahi Nizami deyirdi: "İgid öz qanında dəstəmaz alır".

Yenicə ürəyimizə od salan iyul hadisələrində qəhrəmancasına şəhid olan general-mayor Polad Həşimov, polkovnik İlqar Mİrzəyev, toyunda vağzalı əvəzinə əsgər marşı səsləndirilməsini istəyən vətənpərvər mayor Anar Novruzov, mayor Namiq Əhmədov, baş leytenant Rəşad Mahmudov, 8 il övlad həsrəti çəkib atalıq sevincini dada bilməyən gizir Yaşar Babayev, gizir İlqar Zeynallı, bəy libası geyinmək qismət olmayan müddətdən artıq hərbi xidmət qulluqçusu Elçin Mustafayev, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov, əsgər Xəyyam Daşdəmirov və əsgər Nazim İsmayilov–onlar Azərbaycana qarşı məkrli, genişmiqyaslı, misliolunmayan siyasətin qurbanı oldular.

Belə şəxsiyyətlərə tuşlanan ölüm zərbəsi də təsadüfi deyildi. Çünki xəyanətkar düşmənlər onların vətən üçün hər şey edə biləcəyini görürdülər, torpaqlarımızın, ərazi bütövlüyümüzün təmin olunması üçün bu cür mərd generallarımıza, əsgərlərimizə, onların təcrübəsinə ehtiyacımız olduğunu bilirdilər. Lakin bir şeyi unutmuşdular- Torpaq uğrunda ölən varsa vətəndir...

Bəlkə vətən uğrunda həlak olan, şəhid olan generallarımız, saysız-hesabsız əsgərlərimiz müxtəlif dövrlərdə böyük məqsədlərə qurban getdilər. Amma Azərbaycan xalqı əzmlidir, məqsədinə çatmayınca yolundan dönən deyil! Bunu gec-tez anlayacaq mənfur düşmən.

General-mayor Polad Həşimovun, eləcə də digər qəhrəman şəhidlərimizin sonuncu "görüş"ündə xalqın hüdudsuz izdihamı dəyərli generalımıza və vətən uğrunda canını qurban verən şəhidlərimizə olan ehtiramı bütün dünyaya sərgilədi. Bu günlər dünyanın hər yerində azərbaycanlıların dilindən bir avazla səslənən "Qarabağ Azərbaycandır", Şəhidlər Ölməz, Vətən bölünməz " şüarları insanı riqqətə gətirir.

"ƏN ŞƏRƏFLİ ÖLÜM ŞƏHADƏTDİR" (Hz.Peyğəmbər)

Onlar əsl vətənpərvər idilər. Uca Yaradan qatında da ən şərəfli mərtəbəyə çatdılar.

Cəsarətləri, qəhrəmanlıqları ilə adlarını əbədi olaraq tarixin yaddaşına yazan igidlər, bizə həm qüssə, həm də qürur yaşadan şəhidlərimiz, məkanınızda rahat uyuyun! Bilin ki, Azərbaycanın vətənsevər, Polad ürəkli gəncləri sizin qanınızı yerdə qoymur, qoymayacaq. Artıq tək yumruq kimi hamı qisas gününü gözləyir. Vətənimizin keşiyində duran əsgərlərimizlə yanaşı, 50 mindən çox könüllülərimiz torpaqlarımızı geri qaytarmaq üçün cənab Prezident, Ali Baş Komandan İlham Əliyevdən hərbi səfərbərlik üçün əmr gözləyir. İrəli əmri... Cənab Prezident "Bu gün səfərbərliyə ehtiyac yoxdur" desə də, könüllülərin müraciəti günü-gündən artmaqda davam edir. Bütün bunlar göstərir ki, artıq 30 ilə yaxındır çəkdiyimiz torpaq həsrətinin son dəmləridir. O günə qədər isə başın sağ olsun, 20 faiz torpağa bərabər oğullar itirən anamız Azərbaycan!

**Əfsanə ZAKİROVA,**
**"Qəbələ"nin əməkdaşı.**

# Sayıqlıq məsuliyyət hissidir

Artıq 7 aydan çoxdur ki, koranavirus, COVİD-19 kəlamları insanların gündəlik diləzbəri sözləri olub. Dünyanın hər xəbəri koronavirusla başlayır, pandemiya ilə bitir. Bəzən insanlar bu xəstəliyin olmadığına özünü inandırır, bir növ "dırnaqarası" baxırlar. Ancaq hansısa tanışının, qohumunun xəstəxanalarda bu virusla müalicə olunması və ya həyatını itirməsi sanki onları silkələyir, yuxuya dalmağa qoymur. Bax, o zaman bu xəstəliyin olmasına inanır və başa düşdükləri tərzdə: "bu qripin ən ağır formasıdır, keskin soyuqdəymədir-"deyə "diaqnoz" da qoyurlar…

Koronavirus, COVİD-19 dövrümüzün insanlarını yaşadığı bir dövrdə rastlaşmadıqları bir durumla üz-üzə qoydu. Dünyanın ən güclü dövlətləri, inkişaf etmiş ölkələri, müasir tibb aləmi, ən yüksək texnologiyalar, avadanlıqlar belə koronavirusun qarşısını ala bilmədi. Dünya ölkələri yarım ildən çoxdur ki, bütün səylərini məhz COVİD-19 infeksiyası ilə mübarizəyə və proflaktik tədbirlərin davamına yönəldib.

Koronavirusun yayılmağa başladığı ilk vaxtlardan dövlətimiz qabaqlayıcı addımlar atır. Ölkəmiz dünyanı bürüyən pandemiyaya qarşı mübarizədə çox ciddi tədbirlər görən ölkələr sırasındadır. Prezident İlham Əliyev vətəndaşların sağlamlığını qorumağa yönəlmiş məqsədyönlü strategiya irəli sürmüşdür. Bu beynəlxalq qurumlar tərəfindən də təqdir edilməkdədir. Karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olmuşdur.

Məhdudiyyətlər aradan qaldırılan, karantin rejimi yumşaldılan kimi əhalinin bir qismində yaranan məsuliyyətsizlik, bu virusa qarşı laqeydlik, karantin qaydalarına düzgün əməl edilməməsi, yoluxma və ya yayılmanın sürətini çoxaldır. Buna görə də, Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin yenidən sərtləşdirilməsi ilə bağlı qərar qəbul etdi. Bu qərar sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq, əhalinin sağlamlığı və təhlükəsizliyini təmin etmək üçün çox vacibdir.

Son günlər koronavirusla xəstələnənlərin sayı müqayisə ediləcək dərəcədə azalmışdır, yəni sağalanların sayı yoluxanların sayından çoxdur. Əhalinin böyük qisminin qaydalara riayət etməsi, modul qrupların fəaliyyətinin gücləndirilməsi, qapalı və ictimai məkanlarda polis nəzarətinin artırılması və vətəndaş məsuliyyəti və ictimai nəzarət koronavirus pandemiyasının təsirləri azaldır.

COVİD-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, həmçinin, bu xəstəliyə qarşı peyvəndin hələ də tapılmaması karantin rejiminin tətbiqi üçün əsas yaradır.

Virus insanların sağlamlığını təhlükəyə alır, o, yox olmur və mutasiya edərək insanları hər zaman qorxu, vahimə içində saxlayır.

Bu gün biz təkcə koronavirusla deyil, işğalçı ermənilərlə də mübarizə aparırıq. Son vaxtlar Ermənistanın dövlət sərhədlərimizi pozmaq cəhdi, Tovuz istiqamətində təxribata əl atması, pandemiya ilə mübarizə aparılan bir zamanda qarışıqlıq yaratmaq istəməsi diqqətimizi daha da artırmağı və hər iki təhlükəyə qarşı birgə mübarizə aparmağı tələb edir.

Yoluxma hallarının yüksək olduğu bir vaxtda aksiyaların keçirilməsi, çoxlu sayda insanların bu aksiyalara qoşulması virusun yayılması və insanların həyatının təhlükə ilə üzbəüz dayanmasına şərait yaratdı.

Buna görə də, insanlarımız aksiyalardan, ziyarətlərdən, dəfn mərasimlərində kütləvi iştirakdan uzaq durmalıdırlar. Virusun hər yerdə olması unudulmamalıdır.

Ordumuz, igid oğullarımız torpaqlarımızı, bizi qəddar düşmənimiz ermənilərdən qoruyur. Təxribatların qarşısı alınır və cəza tədbirləri görülərək düşmən yerində otuzdurulur.

Hər iki düşmənə qarşı səfərbər olmalı, ölümsaçan nəfəsi boğmağın məqamıdır.

Rayonumuzda da pandemiyadan–koronavirusdan qorunmaq, yoluxmanın qarşısını almaq üçün müvafiq tədbirlər görülür. Mobil qruplar tərəfindən mütəmadi olaraq sakinlərlə maarifləndirici söhbətlər aparılır, qoruyucu vasitələrdən istifadə etməsinə nəzarət gücləndirilir. Maskalardan geniş və düzgün istifadə olunur, əhaliyə xidmət təşkilatlarında, idarə və müəssisələrdə dezinfeksiyaedici məhlullarla virusa qarşı önləyici tədbirlər aparılır, əhaliyə qoruyucu vasitələr paylanılır.

Bildiyimiz ki, bütün görülən tədbirlərdə məqsəd insan təmasını azaldaraq, yoluxma zəncirini qırmaqdır. Karantindən yumşaldılmaya doğru atılan addımlar insanları sevindirir. Yoluxma nəzarət edilən formaya düşərsə, bütün Azərbaycan yaşıl zonaya çevriləcək. Hər bir vətəndaş özünə qarşı məsuliyyət hissini artırarsa, pandemiyadan qurtarmaq inamı, həyatda qalmaq əzmi qazanacaq!

**Gülnarə İSRAYILOVA,**
**Qəbələ şəhər 5 saylı məktəbin müəllimi.**